# Azərbaycan–BMT tərəfdaşlığı yüksələn xətt üzrə inkişaf edir




***Azərbaycanın Birləşmiş Millətlər Təşkilatına (BMT) üzv olduğu 1992-ci il martın 2-dən indiyədək bu nüfuzlu beynəlxalq qurumla əməkdaşlıq daim gücləndirilib. Təşkilat Bakıda ilk dəfə ofisini açanda münaqişədən əziyyət çəkən qaçqınlara və məcburi köçkünlərə yardım göstərib. Ötən il martın 1-də isə BMT ilə Azərbaycan arasında növbəti beş il üçün əməkdaşlığın əsas istiqamətlərini – gender bərabərliyi, ətraf mühit, inklüzivlik və digər məsələləri əks etdirən saziş imzalanıb.***

Bu məqamda onu da qeyd edək ki, Azərbaycan Respublikası BMT ailəsinin bərabərhüquqlu üzvünə çevriləndən sonra beynəlxalq ictimaiyyətdə layiqli təmsil olunmaq imkanı qazanıb. Ötən dövr ərzində Azərbaycan – BMT tərəfdaşlığı yüksələn xətt üzrə inkişaf edib. Qoşulmama Hərəkatının sədri kimi isə Azərbaycan BMT platformalarında irəli sürdüyü qlobal təşəbbüslər ilə fərqlənən qabaqcıl ölkələrdən birinə çevrilib.

BMT Azərbaycanın Qoşulmama Hərəkatındakı rolunu və bu təşkilat çərçivəsində pandemiya ilə mübarizədə ölkəmizin səylərini yüksək qiymətləndirib. Beynəlxalq qurum Azərbaycanın irəli sürdüyü ətraf mühitin mühafizəsi, işğaldan azad olunan ərazilərdə "yaşıl enerji"nin inkişaf etdirilməsi, əhalinin təmiz içməli su ilə təminatı təşəbbüsləri də yüksək dəyərləndirib.

**(ardı 3-cü səhifədə)**

# Azərbaycan–BMT tərəfdaşlığı yüksələn xətt üzrə inkişaf edir

**(əvvəli 1-ci səhifədə)**

Azərbaycan – BMT tərəfdaşlığının mövcud olduğu 30 il ərzində ölkəmiz adı çəkilən nüfuzlu beynəlxalq təşkilatın Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsinə də xüsusi önəm verib. Respublikamız dünyada 2030-cu il Gündəliyinin icrası ilə bağlı 3-cü Könüllü Milli Hesabatını təqdim edən 12 ölkədən biri, öz regionunda isə ilk dövlət kimi qeydə alınıb. Dayanıqlı İnkişaf Məqsədlərinin nailiyyət indeksi üzrə mümkün 100 xaldan 72,4 xal toplayan Azərbaycan regionda ən yaxşı nəticə göstərərək ötən il üzrə Dayanıqlı İnkişaf Hesabatında 165 ölkə arasında 55-ci yeri tutub. Hesabatda Azərbaycanın yoxsulluğun azaldılması, səhiyyə, qidalanma, qadınların əmək bazarında iştirakı, təmiz su və sanitariya, enerjiyə əlçatanlıq, internet istifadəsi, nəsli kəsilmək təhlükəsi olan canlıların mühafizəsi, əhalinin rifahının yaxşılaşdırılması, şəhər və yaşayış məntəqələrinin davamlı inkişafı sahələrində əldə etdiyi tərəqqi BMT tərəfindən yüksək qiymətləndirilib.

Yeri gəlmişkən, BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinin reallaşdırılması istiqamətində görülən işlər nəticəsində 2021-ci ildə 2020-ci ilə nisbətən ümumi daxili məhsulun real ifadədə 5,6 faiz, qeyri-neft sektorunun 7,2 faiz artması, ümumilikdə isə pandemiya səbəbindən səngiyən iqtisadi fəallığın 2021-ci ildə bərpası bunun bariz ifadəsidir.

Azərbaycan–BMT tərəfdaşlığından danışarkən onu da qeyd edək ki, sülh və davamlı inkişaf bir-biri ilə hər zaman sıx bağlı olub və bir-birini gücləndirib. Məhz elə buna görə də 2030-cu ilədək Dayanıqlı İnkişaf Gündəliyində BMT-yə üzv dövlətlər inkişaf üçün sülhün vacibliyini yekdilliklə qəbul edib. Məsələn, Azərbaycan Prezidenti İlham Əliyev Vətən müharibəsinin başlanmasından bir neçə gün əvvəl BMT Baş Assambleyasının 75-ci sessiyası çərçivəsində bu beynəlxalq təşkilatın 75 illiyinə həsr olunan Yüksək Səviyyəli İclasında bildirib ki, bütün üzv dövlətlər BMT Nizamnaməsinə qoşulmaqla hər hansı bir ölkənin siyasi müstəqilliyinə və ərazi bütövlüyünə qarşı güclə hədələmək və gücün tətbiqindən çəkinmək öhdəliyi götürdükləri halda, Ermənistan öz öhdəliklərini kobud şəkildə pozub və respublikamıza qarşı hərbi təxribat törədib. Ermənistan Azərbaycanın Qarabağ bölgəsinin dağlıq hissəsini və ətraf yeddi rayonunu uzun illərdir ki, işğalda saxlayıb. BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə yekdilliklə qəbul edilən 822, 853, 874 və 884 nömrəli qətnamələrində uydurma "Dağlıq Qarabağ xalqı" və onun "təyini-müqəddərat hüququ"nun adı çəkilməyib, Azərbaycana qarşı güc tətbiq edilməsi və onun ərazilərinin işğal olunması pislənilib, Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə, onun beynəlxalq sərhədlərin toxunulmazlığına hörmət etməyin vacibliyi, Qarabağın dağlıq hissəsinin Azərbaycanın tərkib hissəsi olması təsdiqlənib, işğalçı qüvvələrin ölkəmizin işğal altında olan bütün ərazilərindən dərhal, tamamilə və qeyd-şərtsiz çıxarılması tələb edilib. Digər beynəlxalq təşkilatların qəbul etdiyi, dünya birliyinin vahid mövqeyini ifadə edən çoxsaylı sənədlər də bu ruhda tərtib olunub.

Lakin bütün bunlara baxmayaraq, Ermənistan ordusunun 2020-ci il sentyabrın 27-də təxribat törədərək, ölkəmizə hücuma keçməsi, müxtəlif növ silahlardan, o cümlədən ağır artilleriyadan istifadə edərək yaşayış məntəqələrimizi və hərbi mövqelərimizi bir neçə istiqamətdən atəşə tutması Azərbaycan Silahlı Qüvvələrini əks-hücum əməliyyatlarına başlamağa məcbur etdi. Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ordumuz 44 gün davam edən müharibə gedişində möhtəşəm qələbələr qazanaraq, dünya hərb tarixinə yeni şanlı səhifələr yazdı. Silahlı qüvvələrimiz döyüş meydanında Ermənistanın "güclü, məğlubedilməz" ordu mifini darmadağın etdi. Bununla da BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrini hərbi yolla reallaşdırdı.

Qarabağ və ətraf ərazilərimiz işğal dövründə yerlə-yeksan edilib. Vətən müharibəsində qazanılan ədalətli qələbəmizdən sonra bu torpaqlardakı şəhər və kəndlərimizin bərpasına başlanılıb, keçmiş məcburi köçkünlərin ləyaqətli və təhlükəsiz şəkildə öz yurdlarına geri qayıtmaları qarşıya mühüm vəzifə kimi qoyulub.

Azərbaycan hazırda münaqişədən zərər çəkmiş ərazilərində əsaslı yenidənqurma və bərpa işləri aparır, ən qabaqcıl standartları və texnologiyaları tətbiq etməklə fəaliyyətini ardıcıl şəkildə genişləndirir və sürətləndirir. Davamlı inkişaf prinsiplərini əsas tutaraq işğalçıdan təmizlənən torpaqlardakı dirçəliş prosesi ölkəmizin Davamlı İnkişaf Məqsədlərinə daha da yaxınlaşmasını gerçəkləşdirmək baxımından Azərbaycan üçün mühüm əhəmiyyət daşıyır.

Azad edilən torpaqlarda hazırda reabilitasiyaya mane olan əsas məqam bu ərazilərin erməni faşizmi tərəfindən minalarla çirkləndirilməsidir. Bu, keçmiş məcburi köçkünlərin təhlükəsiz şəkildə qayıtmasına və sürətli yenidənqurmaya əngəl törədir. Ona görə də hazırda



bu məsələnin həllinə BMT-nin Məskunlaşma Proqramı da qoşulmağa, dünyanın müxtəlif ölkələrində postmünaqişə şəraitində şəhərlərin qurulmasında, dayanıqlı şəhər inkişaf konsepsiyalarının yaradılmasında təcrübəsi ilə Azərbaycan hökuməti ilə də sıx əməkdaşlığa hazır olduğunu bildirir.

Azərbaycanın COVID-19-un nəzarətdə saxlanılması üçün vaxtında gördüyü təsirli və adekvat tədbirləri, habelə pandemiyaya, "peyvənd millətçiliyi"nə qarşı beynəlxalq həmrəyliyin gücləndirilməsi istiqamətində də mühüm qlobal təşəbbüslərlə çıxış edib. BMT Baş Assambleyasının Xüsusi Sessiyası, peyvəndlərdən bərabər və universal istifadənin təmin edilməsinə dair qətnamələr bunun bariz nümunələri kimi beynəlxalq ictimaiyyət tərəfindən yüksək dəyərləndirilib. Həmrəylik əlaməti olaraq koronavirusla mübarizəni dəstəkləmək məqsədilə Azərbaycan birbaşa və ya Ümumdünya Səhiyyə Təşkilatı vasitəsilə 80-ə yaxın ölkəyə maliyyə və humanitar yardım göstərib. Azərbaycan, həmçinin qlobal tədbirlərlə bağlı konkret tövsiyələr hazırlaya biləcək BMT-nin COVID-19-dan sonra Qlobal Bərpa üzrə Yüksək Səviyyəli Panelinin təsis edilməsi təşəbbüsü ilə çıxış edib. Bundan başqa, Azərbaycan Qoşulmama Hərəkatına rəhbərlik edən ölkə kimi postpandemiya dövrünün müzakirəsi üçün Qoşulmama Hərəkatına üzv dövlətlərin növbəti yüksək səviyyəli iclasının təşkil edilməsini qarşıya mühüm vəzifə kimi qoyub.

Azərbaycan dövləti hazırda keyfiyyətcə yeni bir dövrə – 2021–2030-cu illəri əhatə edən strateji mərhələyə daxil olub. Ölkənin ərazi bütövlüyünün bərpası ilə səciyyələnən yeni strateji dövrdə dərin struktur-institusional islahatlar hesabına yüksək iqtisadi artım mənbələrinin tapılması vasitəsilə Azərbaycan dövlətinin qüdrətinin daha da artırılması, yüksək rifah cəmiyyətinin qurulması, azad edilmiş bölgələrə tarixi qayıdış və əbədi məskunlaşmanın gerçəkləşdirilməsi prioritet istiqamət kimi diqqətdə saxlanılıb.

Prezident İlham Əliyev bu il martın 5-də BMT-nin Məskunlaşma Proqramının icraçı direktoru Maimuna Mohd Şərifi qəbul edərkən bütün bunlar barədə ətraflı bəhs edib. Dövlətimizin başçısı Azərbaycanın BMT-nin çox fəal üzvü olduğunu, bu beynəlxalq təşkilatın müxtəlif qurumları ilə uğurla əməkdaşlıq həyata keçirdiyini vurğulayıb. Ölkə rəhbəri buna misal olaraq, BMT-nin Məskunlaşma Proqramı tərəfindən bərabərlik, yoxsulluğun azaldılması və urbanizasiya dəyərlərinin təşviq edildiyini diqqətə çatdırıb.

Dövlətimizin başçısı söhbət zamanı Azərbaycanda yoxsulluğun azaldılması ilə bağlı vəziyyətə də toxunub: "Yoxsulluğun azaldılması ilə bağlı hesab edirəm ki, biz bu qlobal bəlanın öhdəsindən uğurla gələ bildik və Azərbaycanda yoxsulluğun səviyyəsi təxminən beş faizdir. Bu da onu göstərir ki, sərvətin bərabər şəkildə bölüşdürülməsi üçün biz enerji sektorundan qaynaqlanan gəlirlərdən müvafiq şəkildə istifadə edə bilmişik. Əlbəttə, iqtisadi islahatlarla, məşğulluqla bağlı yeni imkanlar Azərbaycanda yeni mənzərə yaradacaqdır, çünki əhalimiz artır. Buna görə də məşğulluqla və əlbəttə ki, bununla birbaşa əlaqəli olan yoxsulluğun səviyyəsi ilə bağlı məsələlər xüsusi əhəmiyyət kəsb edir".

Yeri gəlmişkən, respublikamızda pozitiv demoqrafik artım şəraitində yoxsulluq səviyyəsinin əhəmiyyətli dərəcədə azaldılması bu istiqamətdə həyata keçirilən tədbirlərin, eləcə də, BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinin daim diqqət mərkəzində saxlanılması nəticəsində gerçəkləşib. Xatırladaq ki, Dayanıqlı İnkişaf Məqsədləri dünyada həyat səviyyəsini yüksəltmək, bərabərsizliyi azaltmaq, dayanıqlı iqtisadi inkişafa təkan vermək kimi vəzifələrin icrasını qarşıya mühüm vəzifə kimi qoyub. Uğurla reallaşdırılan inkişaf strategiyası nəticəsində Azərbaycanda yoxsulluq son 18 ildə 49 faizdən 5 faizə enib. "Bərabərsizliyin azaldılması" məqsədinə gəlincə, Azərbaycan gəlirlərin ədalətli bölgüsünün səviyyəsinə görə dünya üzrə ən yüksək pillələrdə qərarlaşıb.

Azərbaycanda aparılan sosial-iqtisadi islahatlar, əldə edilən makroiqtisadi sabitlik və yoxsulluğun aşağı olması həyat səviyyəsinə müsbət təsir göstərir. Respublikamızda yüksək həyat tərzi üçün ən müasir infrastruktur və təminat mövcuddur. Azərbaycanın dünya iqtisadiyyatına sürətli inteqrasiyası ixracın genişlənməsini şərtləndirir, bu şəraitdə ticarət tərəfdaşlarının sayı da ilbəil artır. Hazırda dünyanın 180 ölkəsi ilə ticari-iqtisadi əlaqələr həyata keçirilir.

Xarici bazarda rəqabətin kəskinləşməsinə baxmayaraq, ölkə məhsul ixracında öz payını qoruyur və bu paya görə Azərbaycan 200-ə yaxın dövlət arasında ilk 70-likdə qərarlaşıb. Əlverişli biznes mühiti və iqtisadiyyatın rəqabət qabiliyyəti adambaşına gəlir səviyyəsinin artmasına nail olmaq üçün əsas şərt rolunu oynayıb.

***Vaqif BAYRAMOV,***
***"Xalq qəzeti"***